# Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Dövlət investisiyaları şöbəsinin ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (bundan sonra - Nazirlik) aparatının struktur bölməsi olan Dövlət investisiyaları şöbəsi (bundan sonra - şöbə) bu Əsasnamə ilə verilən səlahiyyətlər çərçivəsində dövlət investisiya siyasətinin formalaşmasında və həyata keçirilməsində iştirak edir, dövlət investisiya qoyuluşunun səmərəliliyinin artırılması və Dövlət İnvestisiya Proqramının tərtibi, icrası, monitorinqi, qiymətləndirilməsi və ekspertizası üzrə işlərin təşkilini və tənzimlənməsini həyata keçirir.

1.2. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında" Qanununu və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"ni, digər qanunvericilik aktlarını, Nazirliyin Kollegiya qərarlarını, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin (bundan sonra - nazir) əmr və sərəncamlarını (bundan sonra - təşkilati-sərəncamverici sənədlər) və bu Əsasnaməni rəhbər tutur.

1.3. Şöbə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Nazirliyin aparatının bölmələri, strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki digər qurumlar (bundan sonra - Nazirliyin strukturları), təsisçisi olduğu, səhmlərinin saxlanması və ya idarə olunması Nazirliyə həvalə edilmiş hüquqi şəxslər, eləcə də mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Şöbənin fəaliyyət istiqamətləri

2.0. Şöbə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.0.1. dövlət investisiya siyasətinin formalaşmasında və həyata keçirilməsində iştirak edir;

2.0.2. dövlət büdcəsi hesabına əsaslı vəsait qoyuluşunun istiqamətlərinin müəyyənləşdirilməsi və dövlət investisiya qoyuluşunun səmərəliliyinin artırılması məqsədilə tədbirlər görür;

2.0.3. dövlət investisiya təkliflərini (layihələrini) qiymətləndirir, Dövlət İnvestisiya Proqramının layihəsini tərtib edir, proqram təsdiq olunduqdan sonra həmin proqramda nəzərdə tutulmuş tədbirlərin icrasının əlaqələndirilməsini və onların yerinə yetirilməsinə nəzarəti həyata keçirir, Dövlət İnvestisiya Proqramına daxil olan layihələrin icrasının monitorinqinin aparılmasında iştirak edir;

2.0.4. investisiya qoyuluşu sahəsində dövlət zəmanəti ilə alınan kreditlərə dair xarici investorlarla aparılan danışıqlarda iştirak edir;

2.0.5. müvafiq sahənin inkişafını təmin edir;

2.0.6. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Şöbənin vəzifələri

3.0. Bu Əsasnaməyə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq, şöbənin vəzifələri aşağıdakılardır:

3.0.1. dövlət investisiya siyasətinin formalaşmasında iştirak etmək, bu istiqamətdə aidiyyəti tədbirlər hazırlamaq və həyata keçirmək;

3.0.2. dövlət investisiya siyasətinin əsas istiqamətlərinin prioritetlərinin formalaşdırılmasında iştirak etmək, bu sahədə aidiyyəti təkliflər hazırlamaq;

3.0.3. ölkənin əsas makroiqtisadi göstəricilərinin proqnozları, ortamüddətli sosial-iqtisadi inkişaf konsepsiyası və dövlət proqramları əsasında dövlət investisiya siyasətinin əsas istiqamətləri və prioritetləri nəzərə alınmaqla Dövlət İnvestisiya Proqramının layihəsini hazırlamaq;

3.0.4. dövlət investisiya xərclərinin ilkin həcminə uyğun olaraq sifarişçi təşkilatlar tərəfindən təqdim edilmiş dövlət investisiya layihələrinin iqtisadi səmərəliliyini, sosial əhəmiyyətini və digər sahələrlə qarşılıqlı əlaqəsini araşdırmaq, növbəti büdcə ili və sonrakı üç il üçün Dövlət İnvestisiya Proqramının ilkin layihəsini hazırlamaq və müvafiq qaydada təqdim etmək;

3.0.5. dövlət büdcəsinə yenidən baxıldıqda (dəqiqləşdirildikdə) Dövlət İnvestisiya Proqramına dəyişikliklər edilməsi ilə bağlı təkliflər hazırlamaq;

3.0.6. dövlət büdcəsində dövlət investisiya xərclərinin ümumi həcminin proqnozlaşdırılmasında, dövlət büdcəsinin formalaşdırılması üçün ölkənin iqtisadi və sosial inkişafının proqnoz göstəricilərinin hazırlanmasında, büdcə kreditləşdirilməsi, dövlət və dövlət zəmanəti ilə alınan kreditlərin planlaşdırılmasında və təhlilində iştirak etmək;

3.0.7. sifarişçi təşkilatlarla dövlət investisiya layihələri üzrə müzakirələr aparmaq, Dövlət İnvestisiya Proqramının dövlət büdcəsinin layihəsinə uyğun dəqiqləşdirilmiş layihəsini hazırlamaq və müvafiq qaydada təqdim etmək;

3.0.8. əldə olunmuş məlumatlar əsasında növbəti ilin dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu xərcləri üçün nəzərdə tutulmuş vəsaitin sifarişçi təşkilatlar və obyektlər üzrə dövlət sifarişi kimi bölgüsünün layihəsini hazırlamaq və müvafiq qaydada təqdim etmək;

3.0.9. daxil olmuş dövlət investisiya layihələrinə (təkliflərinə) baxmaq, onları təhlil etmək və müsbət rəy verilmiş layihələri prioritet dövlət investisiya layihələrinin siyahısına daxil etmək;

3.0.10. dövlət investisiya layihələrinin prioritetliyini müəyyən edən meyarlar, onların sahədaxili, sahələrarası və mütləq prioritetliyinin müəyyənləşdirməsi, habelə dövlət investisiyalarının proqnozlaşdırılmasının, reallaşdırılmasının müddət və istiqamətləri ilə bağlı təkliflər hazırlamaq;

3.0.11. dövlət investisiya layihələri üzrə təqdim edilən texniki iqtisadi əsaslandırma, texniki iqtisadi hesablama və layihə-smeta sənədlərinin təhlili əsasında dövlət investisiya layihələrinin ekspertizasını həyata keçirmək və müəyyən olunmuş meyarlar əsasında onların səmərəliliyini qiymətləndirilmək;

3.0.12. dövlət investisiyalarına tələbatı öyrənmək, dövlət investisiya mühitinin daha da yaxşılaşdırılması, dövlət investisiya qoyuluşunun səmərəliliyinin artırılması məqsədilə təkliflər hazırlamaq;

3.0.13. respublika əhəmiyyətli layihələrin həyata keçirilməsində özəl sektorla birgə əməkdaşlığa dair təkliflər vermək;

3.0.14. təqdim olunan layihələrin seçilməsi prosesində mükəmməl informasiya və digər texnologiyalar əsasında hazırlanmış layihələrə üstünlük verilməsi məqsədilə təkliflər vermək;

3.0.15. dövlət investisiyalarının iqtisadiyyatın ümumi strukturundakı yerinə, dəyişmə perspektivlərinə, bu sahədəki problemlərin aradan qaldırılmasına dair təkliflər hazırlamaq;

3.0.16. zəruri hallarda Dövlət İnvestisiya Proqramına daxil olan layihələrin icrasının monitorinqini həyata keçirmək, il ərzində Dövlət İnvestisiya Proqramına daxil olan layihələrin monitorinqinin nəticələri barədə sifarişçi təşkilatlardan daxil olmuş məlumatları təhlil etmək, ümumiləşdirmək, həmin məlumatlar əsasında icmal hesabatın hazırlanmasını və müvafiq qaydada təqdim olunmasını təmin etmək;

3.0.17. Dövlət İnvestisiya Proqramında nəzərdə tutulan tədbirlərin icrasının əlaqələndirilməsi və onların yerinə yetirilməsi üzərində nəzarətin həyata keçirilməsi ilə bağlı təkliflər hazırlamaq;

3.0.18. sifarişçi təşkilatların dövlət investisiyaları sahəsindəki fəaliyyətinin əlaqələndirməsi üçün tədbirlər görmək;

3.0.19. zəruri hallarda Dövlət İnvestisiya Proqramının maliyyələşdirilməsi üçün əlavə maliyyə mənbələrinin müəyyən edilməsinə dair təkliflər hazırlamaq;

3.0.20. dövlət satınalmalarında, sifarişçi təşkilatların tender komissiyalarının tərkibində Nazirliyi təmsil etmək, habelə Nazirlikdə yaradılan tender komissiyasının fəaliyyətində iştirak etmək;

3.0.21. dövlət investisiya layihələrinə dair elektron və yazılı məlumat bazası yaratmaq və bu məlumatların mütəmadi olaraq yenilənməsini təmin etmək;

3.0.22. dövlət investisiyaları sahəsində qanunvericilik aktlarının, o cümlədən qaydaların, təlimatların, hesabat formalarının, habelə təşkilati-sərəncamverici sənədlərin layihələrinin hazırlanmasında və təkmilləşdirilməsində iştirak etmək;

3.0.23. fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə və təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq baxılmasını təmin etmək;

3.0.24. səlahiyyətləri çərçivəsində Nazirliyin inkişaf konsepsiyasının (strateji planının) həyata keçirilməsini təmin etmək;

3.0.25. şöbənin əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

3.0.26. şöbənin iş planını, fəaliyyəti ilə bağlı hesabatları dövrlər üzrə hazırlamaq;

3.0.27. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. Şöbənin hüquqları

4.0. Şöbənin vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

4.0.1. səlahiyyətlərinə aid olan məsələlərlə bağlı aidiyyəti dövlət orqanlarına təkliflər vermək, Dövlət İnvestisiya Proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirililməsini, investisiya layihələrinin ekspertizasını həyata keçirmək;

4.0.2. Nazirliyin strukturları tərəfindən hazırlanmış sənəd layihələrinə (məktub, arayış, sorğu, və s.) dair rəy və təkliflər vermək;

4.0.3. fəaliyyət istiqamətlərinə uyğun rəy və təkliflər vermək, təhlillər, ümumiləşdirmələr, monitorinqlər və tədqiqatlar aparmaq, analitik materiallar hazırlamaq, dövlət investisiyaları sahəsindəki qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək;

4.0.4. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar səlahiyyətləri daxilində Nazirliyin strukturlarına müvafiq sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları (sənədləri) almaq;

4.0.5. fəaliyyət dairəsinə aid edilmiş məsələlərlə bağlı səlahiyyətləri daxilində Nazirliyi dövlət orqanları, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər qarşısında təmsil etmək, hüquq və mənafelərini müdafiə etmək;

4.0.6. Nazirlikdə və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə Nazirliyi təmsil etmək, onların işində iştirak etmək;

4.0.7. dövlət orqanlarına, bələdiyyələrə, fiziki və hüquqi şəxslərə müraciətlərin layihələrini hazırlamaq;

4.0.8. fəaliyyət istiqamətlərinə uyğun olaraq xarici dövlətlərin təcrübəsini öyrənmək və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində təkliflər hazırlamaq; 4.0.9. müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək;

4.0.10. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Şöbənin fəaliyyətinin təşkili

5.1. Şöbənin strukturu və əməkdaşlarının sayı nazir tərəfindən müəyyən və təsdiq edilir. Şöbə bilavasitə nazirə tabedir və onun qarşısında hesabat verir. Nazir tərəfindən səlahiyyət verilmiş şəxs istisna olmaqla heç kəs şöbənin fəaliyyətinə müdaxilə edə bilməz.

Şöbənin strukturuna Dövlət investisiya siyasəti və proqramları sektoru, İnfrastruktur yönümlü dövlət investisiya layihələri sektoru, Sosial yönümlü dövlət investisiya layihələri sektoru və Dövlət investisiya layihələrinin monitorinqi və qiymətləndirilməsi sektoru daxildir.

5.2. Şöbənin fəaliyyətinə nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (şöbə müdiri) rəhbərlik edir. Şöbə müdiri şöbəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.3. Şöbə müdirinin nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavin(lər)i vardır. Şöbə müdirinin müavin(lər)i şöbə müdiri tərəfindən on(lar)a həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır(lar).

Şöbə müdiri olmadıqda, onun səlahiyyətlərini müəyyən edilmiş qaydada şöbə müdirinin müavini (müavinlərindən biri) və ya nazir tərəfindən təyin olunmuş digər şəxs həyata keçirir.

5.4. Şöbənin digər əməkdaşları nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.5. Şöbə müdiri:

5.5.1. şöbənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. tabeliyində olan sektorlar və əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra və xidmət intizamına riayət etmələrinə nəzarət edir;

5.5.3. şöbəyə həvalə olunmuş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

5.5.4. şöbə üzrə Nazirliyin Kollegiyasında müzakirə olunmalı məsələləri müəyyən edir və bu barədə təkliflərini Nazirliyin rəhbərliyinə təqdim edir, şöbə tərəfindən bu Əsasnamənin 1.2-ci bəndində göstərilən qanunvericilik aktlarının və təşkilati-sərəncamverici sənədlərin vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

5.5.5. şöbənin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Nazirliyin rəhbərliyinə təqdimatlar verir;

5.5.6. şöbənin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Nazirliyin digər strukturlarından zəruri məlumat və sənədləri alır;

5.5.7. daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.5.8. şöbədə kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir;

5.5.9. şöbəni təmsil edir.

5.6. Şöbənin əməkdaşları bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

## 6. Şöbənin strukturuna daxil olan sektorların vəzifələri

6.1. Dövlət investisiya siyasəti və proqramları sektorunun vəzifələri aşağıdakılardır:

6.1.1. dövlət investisiyalarına tələbatı öyrənmək və dövlət investisiya qoyuluşunun səmərəliliyinin artırılması məqsədilə təkliflər hazırlamaq;

6.1.2. Dövlət İnvestisiya Proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi sahəsindəki vəziyyəti təhlil etmək, mövcud olan problemlərin aradan qaldırılması üçün təkliflər hazırlamaq;

6.1.3. dövlət investisiya qoyuluşunun əsas istiqamətlərinin, dövlət investisiya strategiyasının müəyyənləşdirilməsi və həyata keçirilməsi üzrə təkliflər hazırlamaq;

6.1.4. zəruri hallarda Dövlət İnvestisiya Proqramının maliyyələşdirilməsi üçün əlavə maliyyə mənbələrinin müəyyən edilməsinə dair təkliflər hazırlamaq;

6.1.5. dövlət investisiyalarına olan ehtiyacların müəyyən edilməsi məqsədilə dövlət investisiyalarının potensial sifarişçilərinə investisiya layihələrinin təqdim olunmasına dair sorğular hazırlamaq;

6.1.6. sifarişçi təşkilatlar tərəfindən təqdim edilmiş investisiya layihələrini təhlil etmək, onların qanunvericiliyə və dövlət investisiya siyasətinə uyğunluğu baxımından ekspertizasını həyata keçirmək;

6.1.7. Dövlət İnvestisiya Proqramının layihəsinin və prioritet dövlət investisiya layihələrinin siyahısının hazırlanmasında iştirak etmək;

6.1.8. Dövlət İnvestisiya Proqramı əsasında dövlət əsaslı vəsait qoyuluşu bölgüsünün layihəsinin hazırlanmasında iştirak etmək;

6.1.9. dövlət investisiya layihələrinin uçotunu aparmaq, dövlət investisiya layihələrinə dair elektron və yazılı məlumat bazası yaratmaq və bu məlumatların mütəmadi olaraq yenilənməsini təmin etmək;

6.1.10. şöbənin fəaliyyət istiqamətləri üzrə qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin, dövlət proqramlarının hazırlanmasında iştirak etmək, dövlət investisiya layihələrinin digər dövlət proqramları ilə əlaqələndirilməsini təmin etmək;

6.1.11. dövlət investisiya siyasəti və proqramları sahəsində beynəlxalq təcrübəni öyrənmək, bu sahədə sektorun fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq;

6.1.12. daxil olan layihələrə, müraciətlərə, məktublara baxmaq, onların qanunvericiliyə uyğun olaraq cavablandırılmasını təmin etmək;

6.1.13. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.1.14. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.2. İnfrastruktur yönümlü dövlət investisiya layihələri sektorunun vəzifələri aşağıdakılardır:

6.2.1. infrastruktur yönümlü layihələr üzrə dövlət investisiyalarına olan tələbatı öyrənmək;

6.2.2. zərurət yarandıqda infrastruktur yönümlü dövlət investisiya layihələrinin həyata keçirilməsinin zəruriliyini əsaslandıran və onun maliyyə-iqtisadi nəticələrini qiymətləndirən sənədləri sifarişçi təşkilatlardan tələb etmək;

6.2.3. infrastruktur yönümlü layihələr üzrə dövlət investisiya qoyuluşu sahəsində sifarişçi təşkilatların fəaliyyətinin əlaqələndirməsi ilə bağlı təkliflər hazırlamaq;

6.2.4. infrastruktur yönümlü sahələrdə sifarişçi təşkilatlar tərəfindən təqdim edilmiş dövlət investisiya layihələrini təhlil etmək, onların ekspertizasını həyata keçirmək, iqtisadi səmərəliliyinin, sosial əhəmiyyətinin müəyyən olunmasında iştirak etmək;

6.2.5. infrastruktur yönümlü dövlət investisiya layihələrinin prioritetliyini müəyyən edən meyarları, onların sahədaxili, sahələrarası prioritetliyinin müəyyənləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq;

6.2.6. əldə olunmuş məlumatlar əsasında növbəti ilin dövlət büdcəsində dövlət investisiya xərcləri üçün nəzərdə tutulmuş vəsaitin sifarişçi təşkilatlar və obyektlər üzrə dövlət sifarişi kimi bölgüsünün layihəsinin hazırlanmasında iştirak etmək;

6.2.7. Dövlət İnvestisiya Proqramındakı dövlət investisiya layihələrinin icrasının gedişi barədə məlumatların toplanmasında, təhlilində və səmərəliliyinin qiymətləndirilməsində iştirak etmək;

6.2.8. dövlət investisiya layihələrinə dair elektron və yazılı məlumat bazasında infrastruktur yönümlü layihələrlə bağlı məlumatların mütəmadi olaraq yenilənməsində iştirak etmək;

6.2.9. Dövlət İnvestisiya Proqramının layihəsinin, şöbənin fəaliyyət istiqamətləri üzrə qanunvericilik aktlarının, o cümlədən qaydaların, təlimatların, hesabat formalarının, habelə təşkilati-sərəncamverici sənədlərin layihələrinin hazırlanmasında və təkmilləşdirilməsində iştirak etmək;

6.2.10. infrastruktur yönümlü dövlət investisiyaları ilə bağlı beynəlxalq təcrübəni öyrənmək, bu sahədə sektorun fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq;

6.2.11. daxil olan layihələrə, müraciətlərə, məktublara baxmaq, onların qanunvericiliyə uyğun olaraq cavablandırılmasını təmin etmək;

6.2.12. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.2.13. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.3. Sosial yönümlü dövlət investisiya layihələri sektorunun vəzifələri aşağıdakılardır:

6.3.1. sosial yönümlü sahələrdə dövlət investisiyalarına olan tələbatı öyrənmək;

6.3.2. zərurət yarandıqda sosial yönümlü sahələrdə dövlət investisiya layihələrinin həyata keçirilməsinin zəruriliyini əsaslandıran və onun maliyyə-iqtisadi nəticələrini qiymətləndirən sənədləri sifarişçi təşkilatlardan tələb etmək;

6.3.3. sosial yönümlü layihələr üzrə dövlət investisiya qoyuluşu sahəsində sifarişçi təşkilatların fəaliyyətinin əlaqələndirməsi ilə bağlı təkliflər hazırlamaq;

6.3.4. sifarişçi təşkilatlar tərəfindən təqdim edilmiş sosial yönümlü dövlət investisiya layihələrini təhlil etmək, onların ekspertizasını həyata keçirmək, iqtisadi səmərəliliyinin və sosial əhəmiyyətinin müəyyən olunmasında iştirak etmək;

6.3.5. sosial yönümlü dövlət investisiya layihələrinin prioritetliyini müəyyən edən meyarları, onların sahədaxili, sahələrarası prioritetliyinin müəyyənləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq;

6.3.6. əldə olunmuş məlumatlar əsasında növbəti ilin dövlət büdcəsində dövlət investisiya xərcləri üçün nəzərdə tutulmuş vəsaitin sifarişçi təşkilatlar və obyektlər üzrə dövlət sifarişi kimi bölgüsünün layihəsinin hazırlanmasında iştirak etmək;

6.3.7. Dövlət İnvestisiya Proqramındakı dövlət investisiya layihələrinin icrasının gedişi barədə məlumatların toplanmasında, təhlilində və səmərəliliyinin qiymətləndirilməsində iştirak etmək;

6.3.8. dövlət investisiya layihələrinə dair elektron və yazılı məlumat bazasında sosial yönümlü layihələrlə bağlı məlumatların mütəmadi olaraq yenilənməsində iştirak etmək;

6.3.9. Dövlət İnvestisiya Proqramının layihəsinin, şöbənin fəaliyyət istiqamətləri üzrə qanunvericilik aktlarının, o cümlədən qaydaların, təlimatların, hesabat formalarının, habelə təşkilati-sərəncamverici sənədlərin layihələrinin hazırlanmasında və təkmilləşdirilməsində iştirak etmək;

6.3.10. sosial yönümlü dövlət investisiyaları ilə bağlı beynəlxalq təcrübəni öyrənmək, bu sahədə sektorun fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq;

6.3.11. daxil olan layihələrə, müraciətlərə, məktublara baxmaq, onların qanunvericiliyə uyğun olaraq cavablandırılmasını təmin etmək;

6.3.12. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.3.13. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.4. Dövlət investisiya layihələrinin monitorinqi və qiymətləndirilməsi sektorunun vəzifələri aşağıdakılardır:

6.4.1. zəruri hallarda dövlət investisiya proqramına daxil olan layihələrin icrasının monitorinqini həyata keçirmək;

6.4.2. il ərzində Dövlət İnvestisiya Proqramına daxil olan layihələrin monitorinqinin nəticələri barədə sifarişçi təşkilatlardan daxil olmuş məlumatların araşdırılması və təhlili əsasında icmal hesabat hazırlamaq;

6.4.3. dövlət investisiya layihələrinin monitorinqi və qiymətləndirilməsinə dair rəylər, hesabatlar, habelə layihələrin icrasının səmərəliliyinin artırılması məqsədilə təkliflər hazırlamaq;

6.4.4. dövlət investisiya layihələrinin monitorinqi və qiymətləndirilməsi ilə əlaqədar sifarişçi təşkilatların rəyini almaq, onları təhlil etmək və ümumiləşdirmək;

6.4.5. sifarişçi təşkilatlar tərəfindən təqdim edilmiş investisiya layihələrini təhlil etmək, onların iqtisadi səmərəliliyinin, sosial əhəmiyyətinin müəyyən olunmasında iştirak etmək;

6.4.6. dövlət investisiya layihələrinə dair elektron və yazılı məlumat bazasında dövlət investisiya layihələrinin monitorinqi və qiymətləndirilməsi ilə bağlı məlumatların mütəmadi olaraq yenilənməsində iştirak etmək;

6.4.7. Dövlət İnvestisiya Proqramının layihəsinin, şöbənin fəaliyyət istiqamətləri üzrə qanunvericilik aktlarının, o cümlədən qaydaların, təlimatların, hesabat formalarının, habelə təşkilati-sərəncamverici sənədlərin layihələrinin hazırlanmasında və təkmilləşdirilməsində iştirak etmək;

6.4.8. dövlət investisiya layihələrinin monitorinqi və qiymətləndirilməsi ilə bağlı beynəlxalq təcrübəni öyrənmək, bu sahədə fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq;

6.4.9. daxil olan müraciətlərə, məktublara baxmaq, onların qanunvericiliyə uyğun olaraq cavablandırılmasını təmin etmək;

6.4.10. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.4.11. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.